MUZEY – MUZEYŞÜNASLAR ÜÇÜN EKSPERİMENTAL TƏCRÜBƏ MEYDANÇASI KİMİ

Elfira Məlikova-Qurbanova[1]

1. MUZEYLƏRİN FUNKSİONAL FƏALİYYƏTİNİN MUZEYŞÜNASLIQ ASPEKTİNDƏN TƏHLİLİ

Əsrlərlə fəaliyyət göstərən muzeylərdə ilk başlanğıcdan, müasir dövrə kimi gedən inkişafın araşdırılaraq tədqiq edilməsi, ayrı-ayrı ölkələrdə kiçik və ya böyük həcmli, məlumatlandırıcı xarakterli informasiyaların çap edilməsi "Muzeyşünaslıq" elminin nəzəri biliklərinin yaradılmasının əsasını qoydu. Muzeyşünaslıq elmi, muzey fəaliyyətinin nəzəri məcmusu olmaqla bərabər, muzey eksponatlarının aid olduğu elmi istiqamətləri də öyrənir. Bu elmin tədqiqat obyektini muzeylər, tarixi abidələr və muzey profillərinə aid olan elmi fənlər təşkil edir.

Muzeyşünaslıq muzeylərin tarixini və muzey fəaliyyətini tədqiq edən ictimai elmdir. Bu səbəbdən də muzeyşünaslığın nəzəri sistemi, metodu, elmlər arasında yeri və elmlərlə inteqrasiyası muzey fəaliyyəti nəticəsində formalaşmışdır. Muzeylərin profil fərqləri muzeyşünaslığı digər elm sahələrini də tədqiq etməyə yönəltmişdir. Bu baxımdan muzeyşünaslıq çoxşaxəli elm sahəsi olaraq bir neçə elmlərlə qarşılıqlı əlaqə və kəsişmə nöqtələrinə malikdir.

Tarixi-mədəni hadisə kimi muzey XIX əsrin sonlarında yeni yaranan "Muzeyşünaslıq" fənninin tədqiqat predmetinə çevrilib. Həmin dövrdən bu günədək muzeylər həm də sənətşünas və tarixçilər, sosioloq və psixoloq, müəllim-pedaqoqlar və digər sahələr üzrə çalışan mütəxəssislər tərəfindən də tədqiqat obyektinə çevrilərək öyrənilib və öyrənilir.

Alimlərin tədqiqat istiqamətlərini dünya muzeylərinin yaranma və inkişafı, ekspozisiyaların strukturu və quruluşu, fondların formalaşması, eksponatların saxlanılması, ekskursiya və sərgi fəaliyyəti, mədəni irs nümunələrinin bərpası və konservasiyası, muzey binaları xüsusi ictimai tikili növü kimi, muzeylərin digər mədəni institutlarla əməkdaşlığı və s. məsələlər təşkil edir.

Muzey işinin çoxşaxəli və çoxçalarlı olması muzeyləri yüksək peşəkarlıq, dəqiqlik, elmilik tələb edən bir sahəyə çevirmişdir. Muzeyşünaslığa dair ilk və

[1] Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Muzeyşünaslıq və turizm" kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, muzeyşünas-alim, elframelikova@gmail.com, ORCID: 0009-0009-2375-2786

davamlı olaraq çap edilən elmi əsərlərdə, o cümlədən informasiya xarakterli məlumatlarda muzeylərin funksional fəaliyyəti müxtəlif cür ifadə edilir. Muzeylərə dair mənbələrdə biz tez-tez muzey işində mədəni-maarif fəaliyyəti, mədəni-kütləvi tədbirlər, elmi-maarif işi, pedaqoji fəaliyyət, estetik tərbiyə anlayışlarına rast gəlirik. Fikrimizcə, funksional fəaliyyət ümumi bir anlayışdır, burada həm mədəni-kütləvi tədbirlər, həm də elmi-maarif işi geniş əhatə olunur. "*Muzeylərin elmi-maarif işini şərh edərkən vurğulamalıyıq ki, müasir dövrdə elmi informasiya axını sürətlə inkişaf etdiyi üçün insanların orta və ali məktəblərdə aldıqları nəzəri bilikləri həyatla, əməli fəaliyyətlə aydınlaşdırmaq kifayət etmir. Buna görə də fasiləsiz olaraq elmi-maarif işinin təcrübə ilə inteqrasiyası olduqca aktual problemlərdən biridir. Hazırda elmi-maarif işi ilə təhsil sistemi, tədris müəssisələri ilə yanaşı kütləvi informasiya vasitələri, bilik cəmiyyətləri və mədəni-maarif müəssisələri də məşğul olurlar. Bu sahədə yeni texnologiyaların tətbiqi, iqtisadi biliklərə yiyələnmək ektiyacı getdikcə daha çox aktuallaşır*" (Məlikova-Qurbanova, 2019).

"Müasir mühitdə muzey işinin aparıcı istiqamətinin müəyyən edilməsi, interaktiv metodunun əhəmiyyətini muzeylərin inkişaf vasitəsi kimi nəzərə çatdırmaq, muzeylərin qarşılıqlı fəaliyyətinin müxtəlif yollarının göstərilməsi, müxtəlif növ və səviyyəli – milli, regional və yerli muzeylərə aid ediləcək şəbəkənin yaradılması məqsədilə inkişaf etmiş ölkələrin muzeyşünaslıq sahəsi üzrə tədqiqatların aparılması, muzeylərdə elmi-maarif və mədəni-kütləvi işin təşkili istiqamətində muzey birliklərinin yaradılması şəxsiyyətin yaradıcılıq və maraq dairəsinin genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir" (*"Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında", 2007)*.

MUZEYŞÜNASLARIN MUZEY İŞİNƏ PEŞƏKAR HAZIRLIĞI

Şəkil 1.1.

1.1. Muzeyşünas kadrların təhsil və təcrübə işi üçün yeganə akademik proqramın hazırlanması zəruriyyəti.

Muzeyşünas kadrların təhsil və təcrübə işində mükəmməl biliklərə yiyələnməsi üçün planlı şəkildə (Universitet və muzeylər), əlaqəli prosesin aparılması mühüm şərtlərdəndir. Bu haqda verilən hər bir təklif muzeyşünas kadrların içindən seçilmişlərdən gələcəkdə professional muzey işçilərinin hazırlanmasına

yardım etmiş olar. Muzeylərin ayrica bir institut kimi fəaliyyət göstərməsi mövcud olan problemləri aradan qaldıra bilməz. Bunun üçün "yeganə akademik proqram"ın hazırlanması vacib və məqsədəuyğundur. Lakin burada da bir sıra suallar meydana çıxa bilər. Məsələn:

1. Muzey və təhsil müəssisələrinin qarşılıqlı əlaqələri mütəxəssislərin yetişməsində nə kimi mühüm əhəmiyyət kəsb edir?

2. Əsas problemlər nədən ibarətdir?

3. Müsbət nəticələr əldə etmək üçün birgə işin səmərəsi nə verə bilər?

Şəkil 1.2.

Müasir təhsil sistemini diqqətlə təhlil etdikdə məlum olur ki, son on il ərzində əhəmiyyətli dərəcədə dəyişikliklər baş vermişdir. Bu təhsil alan tələbələrə, tədris prosesinin strukturuna, o cümlədən muzey təcrübəsi sahəsinə aiddir. Məsələn, Sovet dövrünün arxiv mənbələrindən götürülən məlumatlara görə, sənətşünaslıq fakültələrinin formalaşdığı dövrdə "Muzeyşünasliq" ilk dəfə sənətşünaslıq fakültəsinin tərkibində yaradılmışdır (Eyni proses ADMİU-da baş vermişdir). Kursun strukturunun necə olması və əsas hansı fənlərin keçirilməsi sualı muzey müdirlərinə verilirdi. Beləliklə, incəsənət tarixinin öyrənilməsi hər şeydən əvvəl muzey praktikası ilə əlaqələndirilirdi. İşin bu istiqamətdə aparılması SSRİ Xalq Komissarları Sovetinin tərkibində fəaliyyət göstərən Ümumittifaq Komitəsinin İncəsənət şöbəsinin 4 oktyabr 1936-cı il tarixli, 522 saylı əmrinə uyğun olaraq qurulmuşdur. 1.Rəngkarlıq, heykəltaraşlıq, memarlıq

İnstitutunun sənətşünaslıq şöbələri artıq mövcud olan rəssamlıq fakültəsində təhsil alan tələbələrin təhsil sisteminə uyğunlaşırdı. Qəbul edilən əsasnamə sənətşünaslıq üzrə təhsil prinsipləri və tədris proqramının formalaşması ilə əlaqədar böyük diskussiyalara səbəb olurdu. Zənnimcə, bu təcrübədən istifadə etmək nəzəri və təcrübi istiqamətlərin daha yaxşı şəkildə inkişafına və tələbələrin muzey fəaliyyətinə yaxınlaşmasına yardım edərdi. Məsələn, muzeylərə muzeylərdə çalışan, öz ixtisasını sevən mütəxəssislər lazımdır. Muzey rəhbərləri bu problemlərlə üzləşir. Hansı şöbədə boşluqlarin və mütəxəssislərin az olduğunu çox gözəl bilir. Belə halda təhsil alan muzeyşünaslarla yaxından taniş olmaq vacibdir. Məsələn, muzeyşünasların sistemli plan əsasında muzey rəhbərləri və əməkdaşları ilə görüşlərinin təşkil edilməsi vacibdir. Məhz ona görə də real faktlar əsasında meydana çıxan problemlərin aradan qaldırılması gələcək problemlərin qarşısını almış olur.

Nəzəriyyəçi muzeyşünasların hazırlığı üçün muzeylərin tədris prosesi və muzeyşünaslar üçün tərtib edilən tədris planı haqqında məlumatlandırılması, universitetlə muzeylərin birgə tədbirlər planlarının hazırlanması, muzeyşünaslar üçün lazımi şəraitin yaradılması və onların muzey işi ilə tanışlığı üçün müxtəlif muzeylərdə vaxtaşırı tədbirlərin keçirilməsi qarşımızda duran vəzifələrdəndir (Cəfərova, 2022).



Şəkil 1.3.

1.2. Tədris prosesi muzey və muzeyşünaslığın ortaq nöqtəsi kimi.

Muzeyşünaslıq sosial informasiyanın saxlanılma proseslərini, biliklər və emosiyaların muzey əşyaları vasitəsilə öyrənilməsi və ötürülməsi, muzey işini, muzeylərin sosial funksiyaları və eləcə də muzeyləri ictimai institut kimi öyrənən ictimai elmdir.

Azərbaycanda muzeyşünaslıq bir elm kimi yalnız XX əsrin 90-cı illərindən sonra formalaşmağa başlayıb. 1991-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) "Muzeyşünaslıq" kafedrası yaradılıb, 2005-ci ildə isə turizmin müxtəlif sahələri. o cümlədən muzeylərin idarəedilməsi üzrə mütəxəssislər hazırlayan Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) təsis olunub.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Muzeyşünaslıq və turizm" kafedrasında "Muzey, arxiv işi, abidələrin mühafizəsi" ixtisası üzrə tədris olunan fənlər dünya muzeylərinin tarixi, muzeyşünaslığın tarixi və nəzəriyyəsi və ümumi muzey işi sahələrini əhatə edir. Bu fənlər "Muzeyşünaslıq" üzrə tədris proqramının elmi-nəzəri baxımından təşkilinə yönəlib.

"Bir sıra Avropa ölkələrində muzeyşünasları (Muzeoloq) hazırlayan ali məktəblərdə təhsil alan gənclər konkret ixtisaslaşmaya yönəldilmir, yəni tələbələr geniş profil üzrə ixtisaslaşır. Muzeylər özləri gələcək işçilərinin hazırlanması ilə məşğul olur. Lakin Kolumbiya və Amerikanın təcrübəsinə görə, muzey işçilərini yalnız universitet hazırlayır. 3-cü kursdan başlayaraq aktiv təcrübə universitetin ciddi nəzarəti altında aparılır. Bunun nəticəsində tələbə diplom işinə hazırlaşarkən onun gələcəkdə hansı real işlə üzləşəcəyi məlum olur. Muzey tərəfindən ona lazım olan mütəxəssislərin ayrılması böyük əhəmiyyət daşıyır. Bu sistem Amerikada həyata keçirildiyi halda Rusiyada istifadə edilmir. Amerika muzeyləri yeni sosial problemləri həll etməyə çalışaraq ali təhsil müəssisələrinə yardım edir. Məsələn, universitetlərin təhsil prosesində tələbələrlə həyata keçirmədiyi hazırlığı (muzeydə işləmək üçün tələb olunan biliklər) öz üzərinə götürür və bu istiqamətdə təcrubəsi olmayan muzeylərə də kömək edirlər" (Sauzeri, 2015).

Müasir muzeylər - eksperimental təcrübə meydancası olduğu üçün muzeyşünaslara əsas fəaliyyət istiqamətləri bu məkanda öyrədilməlidir.

Bir eksperimental meydança kimi müasir muzeyin vəzifəsi, ənənəvi muzey məkanını passiv seyr etmək deyil, aktiv şəkildə öyrənmək, tədqiqat və yaradıcılıq mühitinə çevirməklə bağlı olmalıdır. Məhz bu ideyanın bir neçə əsas aspektləri önə çəkilməli və təcrübə keçən muzeyşünaslar da bu prosesi aşağıda qeyd edildiyi kimi mənimsəməlidir:

1.İnteraktivlik və iştirak:

Eksperimental meydança rolunu oynayan muzeylərin əməkdaşları - ziyarətçiləri vizual olaraq eksponatlarla tanış etməklə kifayətlənməməli, eyni zamanda tarixi-mədəniyyət abidələrinə daha dərindən maraq yaradaraq onların öyrənilməsinə

istiqamətləndirməyi bacarmalıdır. Bu, təkcə interaktiv eksponatlar, ustad dərsləri, seminarlar və ziyarətçilərin müşahidə etdiyi proseslə deyil, həm də təcrübə vasitəsi ilə də həyata keçirir.
2. Təcrübə yolu ilə öyrənmə:

- Eksperimental muzeylər muzeyşünas-praktiklərin nəzəri biliklərini işə salaraq onların ziyarətçilərlə qarşılıqlı fəaliyyətini diqqətdə saxlamalıdır.

3. Yaradıcılıq və innovasiya:

- Muzeylər yeni interaktiv texnologiyaların inkişafı və ya təhsil proqramlarının yaradılması kimi muzey fəaliyyəti ilə bağlı innovativ layihələri dəstəkləməklə eksperimental təcrübəyə yol açmış olur.

4. Tədqiqat və elmi layihələr:

- Muzeylər muzeyşünas magistr tələbələrin dissertasiya mövzuları ilə bağlı elmi tədqiqatlar apara bilməsi üçün şərait yaratmalıdır.

- Onlar həmçinin birgə tədqiqatlar aparmaq üçün universitetlər və digər elmi qurumlarla da əməkdaşlıq edə bilərlər.

5. İctimai məkan:

- Eksperimental meydança rolunu oynayan muzeylər insanların görüşə, ünsiyyətə və fikir mübadiləsi aparmaq üçün gələ biləcəyi vacib ictimai məkanlara çevrilir.

Muzeylərin muzeyşünaslar üçün eksperimental təcrübə meydancasına çevrilməsi üçün əsas şərtlər muzeyşünas ixtisası üzrə mütəxəssis hazırlayan universitet və muzeylər arasında əlaqənin davamlı şəkildə aparılmasıdır.

2.MUZEYŞÜNASLIQ NƏZƏRİYYƏSİ İLƏ MUZEY TƏCRÜBƏSİNİN İNTEQRASİYA PROBLEMLƏRİ.

Müasir dövrdə dünya ölkələrinin təhsil sistemində baş verən yeniliklər və bir-birindən fərqlənən metodlardan istifadə qaçılmaz bir proses olaraq çox real qarşılanır. Dəyişən cəmiyyət təhsildə böyük yeniliklərin başlanğıcına istiqamət verir. Dünya təhsil sistemində gedən müxtəlif dəyişikliklərin və yeniliklərin öyrənilməsi qaçılmaz bir faktdır. Muzeyşünasların nəzəri bilikləri təcrübədə tətbiq etməsi üçün yeni muzey modelini öyrənmələri mühümdür. Bu istiqamətdə maariflənmə təkcə dərsliklər, dərs vəsaitləri ilə deyil, eyni zamanda Beynəlxalq Muzeylər Şurası olan IKOM–un muzeyşünaslar və muzeylər qarşısında qoyduğu tələblərin öyrənilməsi ilə də həyata keçirilməlidir.

Müasir muzeylərin problemləri aktuallığını itirmir, çünki hər zaman müəyyən suallar ortaya çıxır: muzeylər məqsədlərinə necə çata bilər? “Muzeyşünaslıq” ixtisası üzrə təhsil alan tələbələrə muzeydə yer ayrılırmı? Muzeyşünaslara işə düzəlmək üçün necə kömək göstərməliyik? Bütün bunları birgə səylərimizlə və qarşılıqlı anlaşma yolu ilə həll etməliyik. Muzeyşünaslar nəzəriyyəçidirlər,

amma onların elmi səviyyəsi yalnız təcrübə zamanı arta bilər. Təcrübəni isə muzeydə işləyərkən əldə etmək mümkündür. Məhz ona görə bilik və təcrübənin qarşılıqlı mübadiləsini təmin etməliyik.

ADMİU-nun «Muzeyşünaslıq və turizm» kafedrasında nəzəriyyəçi-muzeyşünasların muzey işinə peşəkar hazırlığını təşkil etmək üçün aşağıdakı məqsədlər qoyulmuşdur:

a) Muzeyləri (mərkəzi, aparıcı) təhsil prosesi haqqında məlumatlandırmaq (muzeyşünaslar üçün tərtib olunmuş tədris planı ilə tanış etmək);

b) Tədbirlərin keçirilməsi üzrə vahid plan tərtib etmək (universitet və muzeylər);

c) Muzeyşünaslar üçün bütün şəraitləri yaratmaq (universitetdə, muzeylərdə yalnız tədris təcrübəsi zamanı deyil, istənilən vaxt);

d) Muzeyşünasları muzey işi ilə tanış etmək üçün müxtəlif muzeylərdə tədbirlər keçirmək (heç olmasa ayda 1 dəfə).

Şəkil 1.4.

Qeyd edim ki, muzey təcrübəsi tələbələrin elmi potensialını və bacarıqlarını üzə çıxarır, tarixi abidələrin ziyarəti onların ixtisaslarına olan marağını artırır, monumental heykəltaraşlıq nümunələrilə tanışlıq tələbələri heykəltaraşların həyat və yaradıcılığını öyrənməyə sövq edir, muzeylərlə ünvanlı tanışlıq isə onlarda ilkin tədqiqat işinə dair bacarıqları formalaşdırır (ünvanların dəqiqləşdirilməsi, şəhər və rayonlarla tanışlıq və s.). Muzeyşünaslar real muzeylərin strukturu, onların oxşar və fərqli cəhətlərini öyrənməlidirlər. Burada biz şöbələr və fondların adları və fəaliyyəti, keçirilən tədbirlər, müxtəlif yaş kateqoriyalarına aid seyrçilərlə və fərqli peşə sahibləri ilə işin aparılmasını nəzərdə tuturuq.

Muzeyşünaslığın nəzəriyyəsi ilə muzey təcrübəsinin inteqrasiyasını təmin etmək üçün muzey işçisinin dünyagörüşünü yoxlamaq mütləqdir.

Muzey işçisi tarix, mədəniyyət və incəsənət sahəsində dərin biliklərə, həmçinin muzey işinin praktiki bacarıqlarına malik olmalıdır. Onlar təkcə akademik biliklərin daşıyıcısı deyil, həm də muzey işini, o cümlədən muzey binasının tarixini, kolleksiyaları, müxtəlif audutoriyaları, ziyarətçilərlə iş metodları və

vasitələrini və s. bilməli olan mütəxəssislərdir. Ziyarətçilər təkcə sənət əsərinə deyil, həm də ekspozisiyanın yeni memarlıq həllinə baxmağa gəlirlər. Çox vaxt onları muzey tərəfindən təşkil edilən mühazirə və ya mədəni tədbirlər cəlb edir, yaxud onlar ictimai həyatda iştirak etməyə can atırlar.



Şəkil 1.5.

2.1. Universitet və muzeylərin əlaqəli fəaliyyətinin nəticələri.

Müxtəlif xarici ölkələrdə təhsil sistemi öz spesifik xüsusiyyətlərinə görə fərqlənir. Təhsildə yeni metodlardan planlı şəkildə istifadə edərək müasir konsepsiyaları önə çəkmək günün əsas tələbidir. Müvəffəqiyyətlə nəticələnə bilən təhsil proqramları, qarşılıqlı şəkildə bilik mübadiləsi aparılmaqla tədqiq edilməlidir. Elmi bilik sistemində fundamental dəyişikliklərə açıq olmaq lazımdır. Bu istiqamətdə aparılan işlər təhsildə yeni fundamental dəyişikliklər etməyə qadirdir. Artıq yeniliklərin özünü doğrultması zamanın ixtiyarına verilir. Bildirməliyəm ki, bu istiqamətdə müəyyən işlər görülür. Məsələn, Mədəniyyət Nazirliyinin balansına keçən Milli Azərbaycan Tarixi Muzeyində 2017-ci ilin mayından Gənc muzeyşünaslar və muzeysevərlər klubu fəaliyyət göstərir. Ölkənin aparıcı muzeyinin əsas missiyası Azərbaycanın tarixi-mədəni irsinin toplanması, qorunması, nümayişi, öyrənilməsi və təbliğidir. Yaradılan klubun məqsədi isə muzeyşünasları müxtəlif muzeylər, bu muzeylərin tarixi və fəaliyyəti, muzey işinin əsasları ilə tanış etməkdən ibarətdir. Hazırda ADMİU və ATMU-nun onlarla tələbəsi bu klubun üzvüdür. Universitetə gəldikdə isə, 2018-

ci ildən bizdə də Gənc muzeyşünaslar klubu fəaliyyət göstərir. Klubun üzvlərinin iştirakıla biz 2019-cu ildə universitetimizdə Azərbaycanın görkəmli sənətşünas alimi Mürsəl Nəcəfovun 100 illiyi ilə əlaqədar konfrans keçirmişik. Göründüyü kimi, elm və təhsil müəssisələri ilə respublikanın muzeyləri arasında əlaqələrin qurulması istiqamətində iş davam edir. Sözügedən sahənin təkmilləşdirilməsi üçün bir sıra təkliflərim var. İlk növbədə, çox istərdim ki, respublikamızda sırf muzeyşünaslığa aid ayrıca bie elmi jurnal təsis edilsin. Bu elm və təhsilin inteqrasiyası, həmçinin bilik və təcrübə mübadiləsinin aparılması üçün çox vacib məsələdir.

«Muzeyşünasların nəzəri və praktiki biliklərinin muzeylər vasitəsilə inkişafı» metodiki vəsaiti

1. Muzeyşünaslıqda mədəni irsin mühafizəsi və onun problemləri;
2.Muzeylər elmi-tədqiqat müəssisələri kimi;
3. Muzeyşünaslıqla muzey işi arasında əlaqə;
4. Müasir muzeylərdə muzey işinin yeni mərhələsi;
5. Muzeyşünas-tələbələrin elmi-təcrübi iş prosesinin təhlili;
6. «Muzeyşünaslıq və turizm» kafedrasında yeni ideyaların öyrənilməsi və tətbiqi;
7. Təcrübə zamanı lazımi tədbirlərin həyata keçirilməsi üzrə təkliflər;
8. Muzeylərdə bakalavrlarla və magistrantlarla metodiki işin təşkili.

Şəkil 1.6.

Daha bir zəruri məsələ tələbələrin birinci kursdan başlayaraq muzeylərdə keçirilən tədbirlərdə fəal iştiralı ilə bağlıdır. Məsələn, 2018-ci ildə tələbələrimlə birlikdə Milli Azərbaycan Tarixi Muzeyində 18 May – Beynəlxalq Muzeylər Gününə həsr olunan "Abbasqulu Ağa Bakıxanovun yaradıcılığının gənc muzeyşünaslar tərəfindən araşdırılması. Faktlar və Təhlillər" adlı tələbə elmi-nəzəri seminarını keçirdik. Həmin tədbirdə tələbələrimiz Bakıxanovun həyat və yaradıcılığına aid müxtəlif mövzularda məruzələrlə çıxış etdilər. Bu işdə tarix muzeyinin baş direktoru, akademik Nailə Vəlixanlının təklif və təşəbbüslərimizə hərtərəfli dəstəyini, köməyini xüsusi vurğulamaq lazımdır. Yaxşı olardı ki, bu cür konfrans və tədbirlərin müxtəlif muzeylərdə ardıcıl keçirilməsi üçün şərait yaradılsın.

Əlavə edim ki, tələbələr bir çox konfrans və simpoziumlara dəvət olunmurlar. Söhbət təkcə magistrantlardan deyil, xüsusilə bakalavrlardan gedir. Çox yaxşı olardı ki, istər muzey və universitetlərdə, isərsə də elmi müəssisələrdə keçirilən müvafiq konfrans, seminar və başqa elmi tədbirlərdə heç olmasa dinləyici qismində iştirak etsinlər. Hesab edirəm ki, bu təşəbbüs tələbələrin gələcək elmi fəaliyyətinə müsbət təsir göstərəcək. Hazırda "Muzeyşünaslığın tarixi, onun elmi-nəzəri əsasları və metodları" adlı doktorluq dissertasiyası üzərində işləyirəm. Bu mövzu ilə əlaqədar nəzəri və təcrübi bilikləri bir araya gətirməyə çalışıram, müasir muzeylərin vəzifə və tələbləri, yeni konsepsiyalarla bağlı fikir və mülahizələrimi ortaya qoyuram. Bu fikirlər yerli və beynəlxalq konfranslarda həmkarlarla təcrübə mübadiləsi apardığımız zaman aprobasiyadan da keçir. Ümid edirəm ki. bu cür gördüyümüz işlər yaxın gələcəkdə öz bəhrəsini verəcək.

Cədvəl 1.1. Muzeyşünasların və muzeylərin qarşılıqlı probleminin əsas səbəbləri

MUZEYŞÜNASLAR	MUZEYLƏR
1.Muzeyşünaslıq ixtisasının elmi sirlərinin nəzəri baxış prizmasından təhlili	2. Muzeyşünasların muzeylər tərəfindən işə qəbulu prosesində baş verən çətinliklərin məntiqi səbəbləri.
1.Muzeyşünas-mütəxəssislərin muzey fəaliyyətinə daxilolma problemləri ilə qarşılaşma səbəbləri	2. Muzeylərin profilə görə (tarixçilər, sənətşünaslar) işə qəbul strategiyasında boşluqlar
1. Muzeylərdə işlə təmin edilməyən muzeyşünasların İşsizliklə qarşılaşması problemləri	2.Muzeyşünasların muzeydə çalışan digər ixtisas sahibləri tərəfindən qəbul edilməməsi səbəbləri
1.Muzeyşünas-bakalavrların magistraturaya qəbulu problemlərinə dair.	2.Tarixçi-bakalavrlar, sənətşünas-bakalavrların magistraturaya qəbulu və muzeyşünas bakalavrların problemlə üzləşməsi.
1. Tarixçi və sənətşünas bakalavrların "Muzeyşünaslıq" ixtisası üzrə qəbul olduqları magistratura təhsili prosesində qarşılaşdığı problemlərin səbəbi (ilkin ixtisasın muzeyşünaslıq ilə heç bir əlaqəsinin olmaması).	2. Məzun muzeyşünasların muzey fəaliyyətinə cəlb olunması strategiyasının yeni üsullarının təqdimi.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

"Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 06 mart 2007-ci il.

Cəfərova Nəzmin (2022). Qarabağda dağıdılan muzeylərin dirçəldilməsi mühüm vəzifədir. ADMİU-nun "Muzeyşünaslıq" kafedrasının dosenti, sənətşünslıq üzrə fəlsəfə doktoru, muzeyşünas-alim Elfira Məlikova-Qurbanova ilə müsahibə. Azərbaycan məktəbi. ELMİ NƏZƏRİ PEDAQOJİ JURNAL (https://as-journal.edu.az/qarabagda-dagidilan-muzeyl%C9%99rin-dirc%C9%99ldilm%C9%99si-muhum-v%C9%99zif%C9%99dir/)

Kessi Sauzeri, (2015). Amerikada peşəkar muzey təhsili: nəzəriyyə və təcrübənin əhəmiyyəti. Muzey və muzey işçiləri: peşəkar təhsilin problemləri: beynəlxalq konfransın materialları, 14-15 noyabr, 2014-cü il, səh. 13/ tərtibçilər: S.V.Kudryavtseva, Y.D.Rusakova: Dövlət Ermitaji. Sankt-Peterburq Dövlət Universiteti, Fəlsəfə İnstitutu, "Muzey işi və abidələrin mühafizəsi" kafedrası - СПб.: (Dövlət Ermitajının nəşriyyatı, 2015-ci il, - 232 səh.: illüst. XVI rəngli əlavə ilə) /Кэсси Саузери. (2015). Профессиональное музейное образование в Америке: значение теории и практики. Музей и музейщики: проблемы профессионального образования.: материалы международной конференции, 14-15 ноября 2014 г. С.13./ сост. С.В.Кудрявцева, Е.Д.Русакова: Государственный Эрмитаж , Санкт-Петербургский государственный университет. Институт философии, кафедра музейного дела и охрана памятников.- СПб.: (Изд-во Гос. Эрмитажа, 2015. – 232 с.: ил., XVI с. цв. вкл.)

Məlikova-Qurbanova. E. (2019). Muzeyşünasların nəzəri və təcrübi biliklərinin muzey vasitəsi ilə inkişafı. (Bakı: "Elm"), - 108 səh. s. 25-26.